Müsabiqəyə təqdim olunan iddia sənədləri aşağıdakı meyarlar üzrə qiymətləndiriləcəkdir:

1. 2022-ci ildə dərc olunmuş elmi məqalələrinin ümumi sayı 5-dən az olmamalı, o cümlədən:
   - təbiət və texnika elmləri sahələri üzrə ən azı 3 məqalə Web of Science;
   - humanitar və ictimai elm sahələri üzrə ən azı 1 məqalə Web of Science və ya SCOPUS, ən azı 1 məqalə isə ERIH PLUS, Philosopher's Index, Copernicus, Ulakbim, PsycINFO, EconLit və digər nüfuzlu

   beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan jurnallarda dərc olunmalıdır (*əsli və/və ya surəti, PDF formatda, DOİ və internet linki göstərilməklə müsabiqəyə təqdim olunmalıdır*);

   1.1. beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (*bazalarına*) daxil olan jurnallarda dərc olunan məqalələrin qiymətləndirilməsi (MQ) qaydası:

$$MQ=\frac{X\ bal}{Müəlliflərin\ sayı}+\begin{cases}3\ bal\ (1\text{-ci müəllif});\\2\ bal\ (2\text{-ci müəllif});\\1\ bal\ (3\text{-cü müəllif});\\0\ bal\ (\text{digər müəlliflər}).\end{cases}$$

   - Web of Science bazasına daxil olan jurnallarda:
     - Q1 kvartil kateqoriyalı jurnallar üçün **– X = 60 bal;**
     - Q2 kvartil kateqoriyalı jurnallar üçün **– X = 50 bal;**
     - Q3 kvartil kateqoriyalı jurnallar üçün **– X = 40 bal;**
     - Q4 kvartil kateqoriyalı jurnallar üçün **– X = 30 bal;**
     - Kateqoriyası olmayan jurnallar üçün **– X = 20 bal;**
   - SCOPUS bazasına daxil olan jurnallar üçün **– X = 40 bal;**
   - ERIH PLUS, Philosopher's Index, Copernicus, Ulakbim, PsycINFO və ya EconLit bazalarına daxil olan jurnallarda **– X = 20 bal.**

   1.2. Digər jurnallarda:
   **– məqalə sayından asılı olmayaraq ümumilikdə 20 bal;**
2. 2022-ci ildə dərc olunmuş monoqrafiya və kitablar, atlaslar, icmallar (*əsli və/və ya surəti, PDF formatda*):
   **– sayı × 50 bal** (*Academic press, IOP Publishing Ltd,Taylor & Francis Ltd, American Institute of Physics, International Thomson Publishing, Springer, Oxford University Press, Cambridge University Press, Wiley, İntechOpen və s. kimi nüfuzlu beynəlxalq nəşriyyatlarda nəşr edilmiş*)**;**
   **– sayı × 25 bal** (*Azərbaycanda nəşr edilmiş və ISBN-ə malik*)**;**
3. 2022-cı ildə alınmış ixtiralar, patentlər (*surəti*):
   **– sayı × 50 bal** *(beynəlxalq)***;**
   **– sayı × 25 bal** *(Azərbaycan və Avrasiya)***;**
4. Elmi işlərə 2022-ci ildə olunan istinadlar (*müəllif(lər)in özünə olunan istinadı istisna olmaqla, H-indeksi, SCOPUS, Web of Science, Google Scholar üzrə statistika (linklər göstərilməklə)*):
   - İstinadların qiymətləndirilməsi (İQ) qaydası:

$$\text{İQ}=\frac{\text{X bal}}{\text{Müəlliflərin sayı}}+\begin{cases}\text{3 bal (1-ci müəllif);}\\ \text{2 bal (2-ci müəllif);}\\ \text{1 bal (3-cü müəllif);}\\ \text{0 bal (digər müəlliflər);}\end{cases}$$

- Web of Science bazası üzrə – **X = 30 bal;**
- SCOPUS bazası üzrə – **X = 20 bal;**
- Google Scholar üzrə – **X = 10 bal**.

**Qeyd:** Təbiət və texnika elmləri üzrə müsabiqədə iştirak edənlərin İQ balı **yalnız Web of Science;**
Humanitar və ictimai elmlər üzrə müsabiqədə iştirak edənlərin İQ balı isə **Web of Science, SCOPUS və ya Google Scholar** üzrə hesablanır.

5. Multidisiplinar və tətbiqi xarakterli dərc olunmuş elmi işlər (*konkret əsaslandırılmaqla*)
**– sayı × 10 bal;**
6. Respublika, regional və beynəlxalq səviyyəli konfrans, simpozium və digər elmi tədbirlərdə *(o cümlədən, online olmaqla) iştirak (adını və linkini dəqiq göstərməklə, elmi tədbirin proqramının və tezislərinin müvafiq hissələrinin surətlərini əlavə etməklə)*
**– sayı × 10 bal** *(beynəlxalq)***;**
**– sayı × 5 bal** *(Azərbaycan və regional)***;**
7. Respublika, regional və beynəlxalq səviyyəli qrantlar üzrə işlər (*2022-ci ildə yerinə yetirilmiş, konkret göstərilməklə*)
**– sayı × 50 bal** *(beynəlxalq)***;**
**– sayı × 25 bal** *(Azərbaycan və regional)***;**
8. Elmin kütləviləşdirilməsi üzrə fəaliyyət, yığıncaqlarda, ictimaiyyətlə görüşlərdə (o cümlədən, onlayn olmaqla) elmi-kütləvi çıxışlar, TV, radio, internet TV-lərdə çıxışlar, KİV-lərdə müsahibələr, yazılar *(surətləri əlavə olunmaqla, böyük həcmli materiallar üçün isə internet linki göstərilməklə)*
**– sayı × 5 bal;**
9. Şəxsi professional internet, Research-Gate, Mendeley, Academia, Linkedin və digər səhifələrinin mövcudluğu (*linklər göstərilməklə*)
**– sayı × 5 bal**;
10. Dövlət Proqramlarının yerinə yetirilməsində iştirak (*2022-ci ildə, konkret göstərilməklə*)
**– sayı × 10 bal**;
11. Dövlət təltifləri və ya mükafatları (*2022-ci ildə, sənədlərin surətləri təqdim olunmaqla*)
**– sayı × 50 bal**;
12. Kadr hazırlığı (*2022-ci ildə müdafiə etmiş, konkret göstərilməklə*)
    - elmi rəhbər və elmi məsləhətçi *(fəlsəfə və ya elmlər doktorluğu)* **– sayı × 40 bal**;
    - elmi rəhbər *(magistratura səviyyəsində)* **– sayı × 10 bal**;
    - elmi rəhbər *(bakalavriat səviyyəsində)* **– sayı × 5 bal**.
13. Respublika və xarici *(Web of Science, Scopus, ERIH PLUS, Philosopher's Index, Copernicus, Ulakbim, PsycINFO, EconLit və digər nüfuzlu bazalara daxil olan)* elmi jurnallarda təmsilçilik *(redaktor, redaktor müavini, məsul katib, redaksiya heyətinin üzvü – konkret göstərilməklə, internet linkləri əlavə olunmaqla)*

- xarici **– sayı × 10 bal**;
- Azərbaycan **– sayı × 5 bal**;

14. Kitab (*nüfuzlu nəşriyyatlarda nəşr edilmiş*) redaktoru və ya rəyçisi (*əsli və ya ilk əsas səhifələrinin surətləri təqdim olunmaqla*)
    - redaktor **– sayı × 30 bal**;
    - rəyçi **– sayı × 15 bal**;
15. Respublika və xaricdə nüfuzlu nəşriyyatlarda dərc olunmuş nəşrlərdə, həmçinin ölkədaxili və beynəlxalq layihələrdə resenzent fəaliyyəti (*məqalələr, qrant layihələri və s.*)
    **– sayı × 10 bal**;
16. Müdafiələrdə opponentlik fəaliyyəti *(2022-ci ildə, konkret göstərilməklə)*
    **– sayı × 20 bal**;
17. Elmi-təşkilati işlərlə bağlı (*dissertasiya şurası, dissertasiya şurasının elmi seminarı və s. kimi digər*) fəaliyyət (*2022-ci ildə, konkret göstərilməklə*)
    **– sayı × 5 bal**;
18. Respublika, regional və beynəlxalq elmi təşkilatlarda, cəmiyyətlərdə və ittifaqlarda üzvlük və ya rəhbərlik (*konkret göstərilməklə, internet linkləri əlavə edilməklə*)
    - rəhbərlik:
      **– sayı × 50 bal** *(beynəlxalq);*
      **– sayı × 25 bal** *(Azərbaycan və regional);*
    - üzvlük:
      **– sayı × 20 bal** *(beynəlxalq);*
      **– sayı × 10 bal** *(Azərbaycan və regional);*